**“DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN 530 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2024-CÜ İL 25 YANVAR TARİXLİ 4274 NÖMRƏLİ SƏRƏNCAMININ İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

“Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 4274 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planının həyata keçirilməsi ilə bağlı maliyyələşmə zərurəti yarandıqda təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Bu Sərəncamın icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 fevral 2024-cü il
№ 79s